## Cari ilin birinci yarısının yekunları

# Tovuz: Sosial-iqtisadi göstəricilər sevindiricidir



**16 iyul 2015-ci il tarixdə Tovuz rayonunda İcra aparatı işçilərinin, hüquq-mühafizə orqanları və idarə-müəssisə rəhbərlərinin iştirakı ilə 2015-ci ilin 6 ayının yekunlarına həsr olunmuş iclas keçirildi. İclası rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalov açaraq bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə iyul ayının 13-də Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Dövlətimizin başçısı iclasda giriş və yekun nitqləri ilə çıxış edərək 2015-ci ilin birinci yarısının yekunlarının çox müsbət olduğunu, Azərbaycanın uğurla inkişaf etdiyini qeyd etmiş, respublikamızın sosial-iqtisadi inkişafı sahəsində görülən işləri ətraflı təhlil edərək, qarşıda duran vəzifələr barədə müvafiq tapşırıq və göstərişlərini vermişdir.**

Cari ilin birinci yarısı bütövlükdə rayonumuz üçün də uğurlu olmuşdur. Rayonumuzun sosial-iqtisadi inkişafı, əhalinin rifah halının yüksəldilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər qətiyyətlə davam etdirilmişdir.

2015-ci ilin birinci yarısında rayon üzrə makroiqtisadi vəziyyət sabit olmuşdur. Hesabat dövründə rayonda məhsul buraxılışının və xidmətlərin həcmi əvvəlki illə müqayisədə 6,5 faiz artmışdır. Bu artım kənd təsərrüfatında 3,3 faiz, sənayedə 1 faiz, ticarət və xidmət sahələrində 9 faiz, nəqliyyatda 5 faiz, rabitədə 9 faiz təşkil etmişdir. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 9,4 faiz artmışdır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda həyata keçirilməsi nəzərdə tutulan tədbirlər müvafiq icra müddətlərində yerinə yetirilir.

Məlum olduğu kimi, bu il cənab Prezidentin Sərəncamı ilə "Kənd Təsərrüfatı ili" elan edilmişdir. Rayonda kənd təsərrüfatını inkişaf etdirmək, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak etmək üçün konkret tədbirlər görülür. Bu mövsümdə 9 min 700 hektar sahədə payızlıq dənli bitkilərin biçini aparılmış və 30 min 897 ton məhsul götürülmüşdür. Buğdanın məhsuldarlığı bir hektardan 32,1 sentner təşkil etmişdir. Keçən il isə bu rəqəm 31,5 sentner olmuşdur.

Ötən illə müqaisədə bu il kartof əkini sahələri 424 hektar, tərəvəz əkini 49 hektar, yem bitkiləri sahələri 362 hektar artırılmışdır. Bu il sahələrdə bol kartof məhsulu yetişdirilmişdir.

Əkinçiliklə məşğul olanlara lizinq xidmətinin təşkilində, aqrotexniki xidmətlərin həyata keçirilməsində lazımi köməklik göstərilir. Altı ay ərzində məhsul istehsalçılarına güzəştli şərtlərlə 450,8 ton meneral gübrələr satılmışdır. 2015-ci ilin məhsulu üçün 6629 istehsalçıya 9 min 9 hektar buğda sahəsi üçün 360 min 379 manat yardım hesablanıb ödənilmişdir. 14 min 972 nəfər istehsalçının əkib-becərdiyi 20 min 111 hektar yazlıq əkinlərə görə kompensasiya verilməsi üçün sənədlər hazırlanaraq Respublika Komissiyasına təqdim olunmuşdur.

Keçən ilin eyni dövrü ilə müqayisədə rayonda iribuynuzlu malqaranın sayı 297 baş, qoyun-keçilərin sayı 2311 baş, ət istehsalı 3,9%, süd istehsalı 1,9%, yun istehsalı 11,2%, yumurta istehsalı 4,5% artmışdır.

Kənd təsərrüfatı istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində müntəzəm tədbirlər görülür. Nazirlər Kabnetinin iclasında cənab Prezidentin qeyd etdiyi kimi, Tovuzçay su anbarının tikintisi artıq başa çatmışdır. Bu, çox önəmli layihədir. Bununla 20 min hektar torpaqda suvarma yaxşılaşdırılacaq və 300 hektar yeni torpaq sahələrində suvarılma aparılmasına imkan yaranacaqdır.

Aztəminatlı vətəndaşların sosial müdafiəsini gücləndirmək üçün cari ilin birinci yarısında 1127 ailəyə ünvanlı dövlət sosial yardımı təyin edilmişdir. Hazırda rayon üzrə 2 min 296 ailənin 10 min 781 üzvünə ünvanlı sosial yardım təyin edilib ödənilir ki, bunun aylıq məbləği 413 min 371 manat təşkil edir.

Rayon üzrə pensiya və müavinət alan vətəndaşların sayı 31432 nəfərdir. Onların hamısı bu ödənişləri Beynəlxalq Bankın və Kapital Bankın plastik kartları vasitəsi ilə alırlar. Rayon ərazisində 16 ədəd bankomat fəaliyyət göstərir ki, bunun da 7 ədədi kənd yerlərində quraşdırılmışdır.

2015-ci ilin birinci yarısında özəl bank və kredit təşkilatları tərəfindən 10 min 671 nəfərə 19 milyon 165 min manat kredit verilmişdir. Sahibkarlığa Kömək Milli Fondundan 48 layihənin maliyyələşdirilməsinə 877 min manat güzəştli kredit verilmişdir.

Cari ilin birinci yarısında "Ərazi Məşğulluq Proqramına" uyğun 712 nəfər işaxtaran qeydiyyata alınmışdır. 225 nəfər vətəndaşa işə göndəriş verilmiş, 200 nəfər daimi işlə təmin olunmuşdur. 20 iyun 2015-ci il tarixdə növbəti "Əmək Yarmarkası" keçirilmiş, yarmarkada 68 nəfər iş axtaran vətəndaşa göndəriş verilmişdir ki, onlardan 57 nəfəri daimi işlə təmin olunmuşdur. Bütövlükdə yanvar-iyun aylarında 1245 yeni iş yeri açılmışdır ki, onlardan 215-i daimi iş yerləridir.

2015-ci ilin 6 ayı ərzində rayonda keçən ildən başlamış abdlıq-quruculuq və tikinti-quraşdırma işləri davam etdirilmişdir. Belə ki, Tovuz şəhərinin Heydər Əliyev prospektində səkilərin qurulması üçün 2560 metr uzunluqda beton bort daşları düzülmüş, 35 ədəd işıq dirəkləri yenisi ilə əvəz edilmişdir. Ümumilikdə səkilərə 3000 kv.m tamet tavalar döşənmişdir. Qovlar şəhəri Vağzal küçəsindəki istirahət parkında yenidənqurma işləri aparılmışdır, səkilər düzəldilir, yaşıllıqlar salınır, suvarma sistemləri qurulur.

Heydər Əliyev Fondunun dəstəyi ilə Tovuz və Qovlar şəhərlərində hər biri 100 yerlik iki uşaq bağçasının tikintisində tamamlama işləri aparılır.

H.Əliyev parkında Tovuz çayının sağ sahilində rayon əhalisinin və qonaqların istirahət vaxtının daha səmərəli keçməsi üçün bir ədəd fəvvarəli göl və geniş əyləncə mərkəzinin tikintisi başa çatdırılıb, əhalinin istifadəsinə verilmişdir.

Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun tikintisi işləri sürətlə davam etdirilir. Minnətdarlıq hissi ilə qeyd etməliyəm ki, cənab Prezidentin 30 iyun 2015-ci il tarixli Sərəncamı ilə yolun tikintisinin davam etdirilməsi üçün əlavə vəsait ayrılmışdır.

2015-ci ilin birinci yarısında yaşayış məntəqələrinin elektrik enerjisi, qaz, su təchizatı məsələləri ilə müntəzəm məşğul olunmuşdur. Əhali əsasən fasiləsiz olaraq elektrik enerjisi ilə təmin olunmasına baxmayaraq bu təsərrüfatın yenidən qurulmasına ciddi ehtiyac vardır. Ümid edirik ki, elektrik təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi ilə əlaqədar yaradılmış "Azərişıq" ASC yaxın vaxtlarda bu işin icrasına başlayacaqdır.

Hazırda rayon üzrə 30 min 558 abonent sayğaclaşmış şəkildə təbii qazla təmin olunur. Altı ay ərzində 45 yaşayış məntəqəsində 331 abonentə təbii qaz xətti çəkilmişdir. Böyük Qışlaq, Hacıhəsənli və Molla Ayrım kəndlərinə qaz çəkilişinə başlanılmış və işlər davam etdirilir.

Tovuz şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsinin 3-cü mərhələsi başa çatmaq üzrədir. Tovuz su-kanal idarəsinin balansında olan 416 kilometr daşıyıcı su xətləri vasitəsilə Tovuz və Qovlar şəhərlərinə, eləcə də 14 kəndə içməli su verilir. Hesabat dövründə rayonun Düz Cırdaxan kəndində 18,5 kilometr su xətti əsaslı təmir olunaraq 700-ə yaxın ev təsərrüfatı içməli su ilə təmin edilmişdir. Ümumilikdə rayon üzrə 15 min 500-ə yaxın abonentə xidmət göstərilir.

Bu yaxınlarda biz geniş Şura iclasında "I Avropa Oyunlarının yekunları və rayonun idman Strategiyası" mövzusunda məsələni ətraflı müzakirə etdik və növbəti illər üçün idmanın inkişafı ilə bağlı bir sıra vacib qərarlar qəbul etdik. Biz bu istiqamətdə davamlı iş aparmaq və real nəticələrə nail olmaq əzmindəyik.

Təhsil sahəsində aparılan işlər həmişə rayon icra hakimiyyətinin diqqətində saxlanılır. Rayonda məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində işlər ardıcıllıqla davam etdirilir. Təhsilin inkişafına göstərilən dövlət qayğısına əməli işlərlə və yüksək nəticələrlə cavab vermək hamımızın borcudur.

Hərbi-vətənpərvərlik sahəsində aparılan işlər və gənclərin ali hərbi məktəblərə və hərbi liseylərə göndərilməsi ənənə halını almışdır.

Rayonun məktəbəqədər tərbiyə müəssisələrinin fəaliyyətində lazımi keyfiyyət dəyişilikliyinə nail olunması istiqamətində aparılan işlər davam etdirilir. Qeyd etdiyim kimi, bu il hər biri 100 yerlik 3 körpələr evi-uşaq bağçası istifadəyə veriləcək, Qovlar şəhərində daha bir körpələr evi-uşaq bağçasının tikintisinə başlanacaqdır.

Biz səhiyyənin maddi-texniki bazasını möhkəmləndirməklə əhalimizə nümunəvi tibbi xidmət göstərmək istəyirik. Hesabat dövründə 106 min 342 nəfər rayon sakini tibbi müayinədən keçirilmiş, 2006-2015-ci il təvəllüdlü 17897 uşaq elektron sağlamlıq kartı ilə təmin olunmuşdur. Keçən altı ayda 1333 cərrahi əməliyyat həyata keçirilmiş, ana ölümü hadisəsi baş verməmişdir. Rayon ərazisində xüsusi təhlükəli infeksiyalar aşkar edilməmiş, epidemioloji vəziyyət stabil olmuşdur.

Bu ilin birinci yarısında mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində işlər davam etdirilmişdir.

2015-ci ilin birinci yarısında RİH başçısı aparatına 471 vətəndaş müraciəti daxil olmuş və 797 nəfər isə RİH başçısı tərəfindən qəbul edilmişdir. Bu müraciətlərin əksəriyyəti torpaq, mənzil, əhalinin sosial müdafiəsi, iş, ailə və məişət problemləri və yardım tələbi barədədir. Hər bir müraciətə həssaslıqla yanaşılmışdır.

Rayonumuza göstərdiyi diqqət və qayğıya görə cənab Prezidentə tovuzlular adından dərin minnətdarlığımı bildirir və əmin edirəm ki, Tovuz rayonunda onun hər bir tapşırıq və tövsiyələri bundan sonra da böyük məsuliyyət hissi ilə icra ediləcəkdir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**